# YOLUMUZ - TURAN YOLU



Vaxt çatıb zamandır Turanın-yolu,
Şərəfi o şandır Turanın-yolu.
Bəxt-talehinə düşən vəzifə,
Bilki, Ərdoğandır Turanın-yolu.
Məlhəmi-dəvanı səndə görürük,
Bir sənə gümandır Turanın-yolu.
Əsarətdən qurtar Türk xalqlarını,
Açılan sübh-dandır Turanın-yolu.
Gör nə vaxtdan-bəri yoldadır gözü,
Məsum İrəvandır Turanın-yolu.
Yağı düşmən salıb yurdu didərgin,
Təbrizlə-Arandır Turanın-yolu.
Sən ki, bir qartalsan, sərçələr hara,
Şuşa-Zəngilandır Turanın-yolu.
Bunu sübut edib şəhidlərimiz,
Döyüşə meydandır Turanın-yolu.
Oyan, ey ruhumun sirdaşı olan,
Yetişib bu andır Turanın-yolu.
Şəmə pərvanədir günün tutarı,
Bil, Azərbaycandır Turanın-yolu.
Yaranışlarının təbincə desək,
Allaha məkandır Turanın-yolu.
Tutduğu-qıldığı onun ədası,
Xilqətə əyandır Turanın-yolu.
Göyçədən o bəri Zəngəzuracan,
Mil-Muğan, Şirvandır Turanın-yolu.
Düzülüb cərgəyə həddi-hüdudu,
Yolunda karvandır Turanın-yolu.
Obası-atları haray salıbdır,
De: Qazaxstandır Turanın-yolu.
Çin-Səddindən bəri ta Urmiyayacan,
Təqdiri-bəyandır Turanın-yolu.
Səmərqənd-Buxara vardır cəlalı,
O Özbəkstandır Turanın-yolu.
Fikrdə qayənin tərzi bildirir,
Gərçidə dövrandır Turanın-yolu.
Quruluşda mizi sütuna həmddir,
O ərşə tavandır Turanın-yolu.
Oraya Eşqabad daxil olmaqla,
Türkimənstandır Turanın-yolu.
Çöllərin qəmi var, dərddir çarəsi,
Kəsbə dad-amandır Turanın-yolu.
Ya Rəbbi, gəl ona qüvvət-taqət ver,
Mülkə hökmürandır Turanın-yolu.
Qəlbi bu Eşq ilə qurub-yaradan,
O Başqırdstandır Turanın-yolu.
Ariflər yanında hörməti vardır,
Məsləkinə sandır Turanın-yolu.
Ər oğlu bir ərsən torpağın bəlli,
İstanbul-cahandır Turanın-yolu.
Böyük-kiçiklikdə yaradıb məbəd,
Məhşərində candır Turanın-yolu.
Əzəli birliyi yenidən dirilt,
Kövseyi-Kə' yandır Turanın-yolu.
Soy-kökünü burda bilənlər bilir,
Xalqlara nişandır Turanın-yolu.
Vəhdət, amal üstə qurulub burda,
Yola bəzirgandır Turanın-yolu.
Burda yad eyləyir şahanşah-dövrü,
Qədim İsfahandır Turanın-yolu.
Karvansaraları uçub-dağılıb,
Dərbənd-Həmədandır Turanın-yolu.
Eşqin fərağında biətli kimsə,
Çöllərdə sənandır Turanın-yolu.
Memar Əcəminin qəsri-qalası,
Qars-Naxçıvandır Turanın-yolu.
Qəflətdə yatma, gəl, bir bax özünə,
Əzada ümmandır Turanın-yolu.
Torpaq-Su, Hava-Od yoxsa, yox həyat,
Bu yerə təkandır Turanın-yolu.
Namusu-şərəfin odur dərgahı,
Halda «Əşiran»dır Turanın yolu.
Orda haqq-hesabı çəkəndə gördüm,
Dinimdə imandır Turanın-yolu.
Baykaldan bu yana Başqurd, həm Tatar,
Uyqur - Əndicandır Turanın-yolu.
Yenisel - çayının ətraf yerləri,
Bu yandan Kazandır Turanın-yolu.
Həsrətdə qalıbdır neçə əsrlər,
Tale yaşayandır Turanın-yolu.
Bariz sifətləri – yolçuluğunda,
Atəşdən yanandır Turanın-yolu.
Ondan nökər olmaz o gədalara,
Bəy nəsilli xandır Turanın-yolu.
Ululvardan qalıb bizə nəsihət,
Kitabı-Qurandır Turanın-yolu.
Bəhrin barigahın eyləmiş sübut,
Əqidə-vicdandır Turanın-yolu.
Bəşər bu işlərdən xeyrin görəcək,
Aləmə mizandır Turanın-yolu.
Gələcək məqsədlər bağlıdır ona,
Millətə dərmandır Turanın-yolu.
Şərqin o mülkündən məbədgahı var,
Yazılı divandır Turanın-yolu.
Əbədi həyatın dirilik suyu,
Tarixdə qalandır Turanın-yolu.
Gör nə qoyub-gedib zəmanə-əhli,
Xərabət-virandır Turanın-yolu.
Bineyi-dövrdən ora fikir ver,
Ədəbdə-ərkandır Turanın-yolu.
Mənəvi qayəni yaradıb əza,
Mülkə xanədandır Turanın-yolu.
Keçmişdən bu yana araşdır onu,
Tasəvvüf-irfandır Turanın-yolu.
Qələmlə çəkilib hüsnü-camalı,
Bir sirli-nihandır Turanın-yolu.
Şeyxlər məskəni Sərabla birgə,
Ərdəbil-Zəncandır Turanın-yolu.
Dəyərini dəhrin bir özü bilir,
Haqqa la'məkandır Turanın-yolu.
Gözünü yollardan yığmayan üçün,
Şəbində hicrandır Turanın-yolu.
Qəriblər çoxdandır çəkir həsrətin,
Məhbusa zindandır Turanın-yolu.
Baxçası olsa da, keçməyib Ruhdan,
Bağında fidandır Turanın-yolu.
Gecəsinə dair buyurub gecə,
Şami-qəribandır Turanın-yolu.
Bu vətən daima çağırır səni,
Kəsilmiş qurbandır Turanın-yolu.
Silkələ özünü, özünə, gəl sən,
Damarımda qandır Turanın-yolu.
O mərd igidlərin diyarıdır yer,
Bizə imtahandır Turanın-yolu.
Bu ömr-payını, paylıyanından,
Vaxtına ehsandır Turanın-yolu.
Bütün üləmələr söyləyir dəqiq,
Sonda çırağbandır Turanın-yolu.
Çoxdandır ki, əkib arpa-buğdasın,
Üyüdən xırmandır Turanın-yolu.
Sübhdən oyanışı gücün alacaq,
Açılan bir dandır Turanın-yolu.
Bütün millətlərə əta edəcək,
Şərqdə Gündoğandır Turanın-yolu.
Yarağlanar, orda, həyatı ilə,
Xalqlara ünvandır Turanın-yolu.
Kamillikdən bunca idrak etsin bar,
Amalı insandır Turanın-yolu.
Çəkib xəritəni, gəl al, qərara,
Dünyaya fərmandır Turanın-yolu.
Allah-Təalanın özü buyurub,
Haqdan ərməğandır Turanın-yolu.
Keçəcəyi yolda qarı-qışı var,
Bu yolda üsyandır Turanın-yolu.
Kənar çıxışlara, Bilal, ümüd yox,
Ancaq bil Turandır, Turanın-yolu.



***BİLAL,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***«Qızıl qələm» mükafatçısı, şair-filosof.***